**Sevinc Ələsgərova**
**dosent**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** sevaaleskerova62@gmail.com

# Maral Rəhmanzadə yaradıcılığında təbiət mənzərələrinin səciyyəvi xüsusiyyətləri

**Xülasə:** Məqalədə görkəmli Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığı araşdırılmış, rəssamın mənzərə janrında, müxtəlif texnikalarla çəkdiyi əsərlərinin səciyyəvi xüsusiyyətləri təhlil olunmuşdur.

**Açar sözlər:** təbiət, mənzərə, qrafika, Azərbaycan, Maral Rəhmanzadə

Xalq rəssamı Maral Rəhmanzadə XX əsr Azərbaycan təsviri sənətinin rəngkarlıq və qrafika sahəsində fəaliyyət göstərmiş görkəmli rəssamlarındandır. Maral Rəhmanzadənin mövzu və janr müxtəlifliyi ilə seçilən çoxşaxəli yaradıcılığında mənzərə janrı, xüsusilə təbiət mənzərələrini əks etdirən silsilə əsərlər özünəməxsus bədii həlli ilə diqqət çəkir. Bu mənada rəssamın "Naxçıvan" (1963), "Quba" (1963), "Mənim Vətənim" (1964), "Azərbaycan" silsiləsi (1970), "Lənkəran" (1970), "Laçın" (1973), eləcə də "Afrika haqqında" (1967) və "İran" (1971) qrafik silsilələrini qeyd etmək olar. Haqqında bəhs edəcəyimiz bu silsilələr istər-istəməz onu seyr edən tamaşaçıda lirik-poetik ovqatın yaranmasını şərtləndirir. Bu əsərlərin əks etdirdiyi tarixi yerlər, füsunkar mənzərələr eyni zamanda özünün kifayət qədər tarixi tutum daşıması ilə də seçilir.

Maral Rəhmanzadənin təbiət motivli əsərlərinin bədii məziyyətlərinin əyani göstəricisi kimi 1996-cı il, avqustun 3-də Azərbaycan Milli İncəsənət Muzeyində rəssamın anadan olmasının 80 illiyinə həsr olunmuş fərdi sərgisində "Naxçıvan" silsiləsini gördükdən sonra Ümummilli lider Heydər Əliyevin böyük məmnunluq hissi ilə etdiyi çıxışı vurğulamaq olar: "Mən o qədər də yaxşı bilmirdim ki, Siz Naxçıvanın təbiətini belə gözəl əks etdirmisiniz. Ora həqiqətən möcüzəli bir yerdir. Bilirsiniz, oradakı dağların səhər bir rəngi olur, günorta rəng dəyişir. Qəribə bir şeydir. Məsələn, dağlara, daşlara uzaqdan baxırsan, biri göy, biri yaşıldır, digəri narıncı rəngdədir. Qəribə rəngləri var. Siz ki, oraya getmişsiniz, onları öz əsərlərinizdə əks etdirmisiniz, bu, çox gözəldir. Çünki Naxçıvan elə bir yerdir ki, oraya gedib gəlmək də çətindir, ona görə o yerləri görən də azdır. Xınalığı da çəkmisiniz, bu da çox gözəldir. Çünki Azərbaycanın elə guşələri var ki, bunlar abidədir. Bir tərəfdən təbiət abidəsidir, ikinci tərəfdən də insanların dağlar qoynunda yaratdıqları evlər, yaşayış yerləri

– bunlar da abidədir. Xınalıq da Azərbaycanın bir abidəsidir, nadir bir yerdir" (1, 456). Bu sətirlərdə Ümummilli liderin təkcə Maral Rəhmanzadənin rəssamlıq sənətinə deyil, məhz onun özünün də Azərbaycana, doğma Vətənin hər qarışına – torpağına, dağına, daşına dərin məhəbbət ifadə olunur.

Rəssamın Naxçıvanla bağlı bir-birindən maraqlı və müxtəlif texnikalarla işlənilmiş əsərləri bir növ özündə Naxçıvan təbiətinin ecazkarlığını əks etdirir. "Əshabi-Kəhf", "İlandağ", "Culfa", "Cuğa körpüsü", "Dağlar", "Duzlu dağlar", "Naxçıvan dağları", "Günorta", "Yolda", "Təbiətin əfsanəsi" və s. bu qəbildəndir. Müxtəlif illərdə yaradılmış bu əsərlərdə sanki Naxçıvan təbiətinin tipik rəngləri, onun əhalisinin zövqü və hissləri duyulur. Belə ki, olduqca xoş və ürəkaçan olan bu mənzərələrdə əksini tapmış Naxçıvanın başı qarlı dağları, sıldırım qayaları, qədim abidələri, dərin dərələri, geniş düzənlikləri, bağlı-bağatlı çölləri, günəşdən nur alan bərəkətli düzləri öz gözəlliyi ilə tamaşaçısını heyran edir. Lakin bir nüansı xüsusilə qeyd etmək lazımdır ki, Maral Rəhmanzadənin Naxçıvan mənzərələri içərisində dağ təsvirlərinin bir ayrı özəlliyi vardır. Çünki rəssam ümumiyyətlə, Azərbaycan dağlarını olduqca yüksək peşəkarlıqla bədii görüntüyə gətirir və onların əzəmətini çox inandırıcı şəkildə təqdim edə bilirdi. "O, dağ massivlərini həm gündüz – günəşin zenitdə olduğu və rənglərin daha parlaq çalar aldığı ("Naxçıvan" 1971, "Dağlar" 1972,), həm də qürub çağı – batan günəşin şüaları qayaların üzərində oynayaraq onları tünd-qırmızı rəngə boyayan, uzaqdakı dağları isə soyuq axşam alatoranlığına qərq etdiyi vaxt rəsm çəkməyi sevirdi. Rəssamın etüd mənzərələrinə şaquli perspektiv xasdır. Burada rəssam, xətti, tonal və hava perspektivlərini şüurlu şəkildə ikinci plana keçirir ki, bu da ucsuz-bucaqsız dağ massivlərini rəsmlərin əsas personajına çevirmək məqsədi daşıyır. Dekorativ koloristik quruluşdan istifadə etməklə o, gərgin rəng səslənməsinə nail olur" (3, 135)

Azərbaycanın füsunkar və ecazkar təbiətinin gözəlliklərini lirik-poetik planda əks etdirmək sahəsində Maral Rəhmanzadənin axtarışları gələcəkdə onun daha çox bölgələrə səfər etməsini şərtləndirəcək. Bir-birinin ardınca Azərbaycanın şimal və cənub bölgələrinə səfər edən rəssamın yaradıcılığının səciyyəvi cəhətlərindən biri çəkdiyi təbiət mənzərələrinin hər birinə eyni məhəbbət nümayiş etdirməsidir. Yəni, o, ölkənin şimal və cənub bölgəsinə fərq qoymazdı.

Maral Rəhmanzadənin bir özəlliyi də ondan ibarətdir ki, o təbiətdə adi insanların gözlə görə bilmədiyi gözəllikləri sezə və onu olduqca yüksək ustalıqla bədii görüntüyə çevirə bilirdi. Bədii dildə desək, rəssam bir növ təbiətin sirlərindən agah idi. Bu isə yalnız təbiəti sevən, ona aşiq olan yaradıcı insanların xüsusiyyətidir. Məhz buna görə Maral Rəhmanzadə Azərbaycanın bir çox yerlərini qarış-qarış gəzmiş, hətta insan ayağı dəyməyən yerlərə ilk qədəm

basmış və həmin yerləri bədii təsvir vasitələrindən istifadə etməklə öz tamaşaçılarının da görməsinə nail olmuşdur.

Maral Rəhmanzadə bir çox insanların cürət edib gedə bilmədiyi yerlərə belə getməkdən çəkinməzdi. Biz bunu onun istər sənaye, istərsə də təbiət mənzərələrində aydın müşahidə edə bilərik. Belə ki, sənaye mənzərələri üçün əgər ən təhlükəli obyektlər nazik dirəklər üzərində salınmış Neft daşları idisə, təbiət mənzərələrində isə bu təbii ki, sıldırımlı qayalar və əzəmətli dağlar idi ki, rəssam bütün qorxu hissini kənara ataraq həmin obyektləri daha yaxından müşahidə etmiş və rəsmini çəkmişdir. Bu mənada onun "Quba" silsiləsini, xüsusilə Xınalıq kəndinin heyrətamiz mənzərələrini qeyd etmək olar.

1963-cü ildən etibarən rəssam Qubanın Xınalıq kəndinə səfər edir və mənbələrə görə, "bu yüksəkliyi ilk fəth edən qadın rəssam - Maral Rəhmanzadədir, Xınalıq onun kəşfidir. Yolların çətinliyi, şəraitin məhdudluğu, nəqliyyatın tam uyğun olmadığına baxmayaraq rəssam bütün çətinlikləri dəf edirdi. Burada onu hamı tanıyırdı, sevirdi. Həftələrlə bu kənddə yaşayan rəssam qadın, yerli adamlarla özü arasında yaranan səmimilikdən irəli gələrək bəzən çəkdiyi eskizləri belə insanlara xatirə olaraq bağışlayırdı. Bu işlərin bir qismi kətan üzərində yağlı boya, kağız üzərində sulu boya, karton üzərində quaş, kağız üzərində qarışıq texnika və litoqrafiya üsuluyla hazırlanmışdı" (2, 43-44).

Rəssamın Quba mənzərələrini, xüsusilə Xınalıq kəndinin təbiətini özündə əks etdirən "Xınalıq", "Xınalıq kəndi", "Xınalıq küçələri", "Xınalığın damları", "Xınalıq. Qızıl qaya", "Quba. Çıraq qala", "Mənzərə", "Sıldırım dağlar", "Dağ kənd" və s. mənzərə əsərləri yuxarıda qeyd etdiyimiz bədii məziyyətlərin əyani göstəricisidir. Bu əsərlərdə hər iki tərəfində uca, başı qarlı dağlar yerləşən kənd və onun yolları, qədimyana evləri, eləcə də az-az görünən kənd sakinlərinin təsvirləri olduqca yüksək ustalıqla ifadə olunmuşdur. Bununla yanaşı rəssamın təsvir olunan obyektlərin bədii həllində təbii rənglərdən düzgün istifadə etməsi də onun nə dərəcədə qrafika sənətinin sirlərinə yiyələnməsini göstərir. Qrafika nümayəndələrinin adətən yalnız iki – ağ və qara rəngin təzadlarından istifadə etdiyi halda, Maral Rəhmanzadənin bu sahədə özünəməxsus palitrası var idi. Ağ, qara, boz, qəhvəyi, bəzən də göy və yaşıl rənglər rəssamın ən çox istifadə etdiyi rənglər idi. Onun təbiət mənzərələrində ilin fəsillərindən asılı olaraq təbiətin rəngi gerçəkdə olduğu kimi təcəssüm olunurdu.

"Xınalıq" (1963) əsərində arxa fonda yerləşən başı qarlı dağların yaşıl rəngli otlara bürünmüş ətəyi, ön planda isə kənd evlərinin piramidaya bənzər düzülüşü Qədim Misir ehramlarını xatırladır. Eynilə bu cür kompozisiya quruluşuna biz rəssamın "Xınalıq. Qızıl qaya" (1963), "Xınalıq küçələri" (1963) əsərlərində də rast gələ bilərik. Lakin qeyd edək ki, bu əsərlərdə baxış bucağı eynilik təşkil etsə də, daha dəqiq desək, məzmun oxşarlığı olsa da, onların formatı şaquli və üfüqi olmaqla müxtəlif forma-biçimdə həll edilmişdir.

Maral Rəhmanzadənin təbiət mənzərələrini özündə əks etdirən maraqlı silsilələrindən biri də 1970-ci ildə ərsəyə gətirdiyi "Lənkəran" silsiləsidir. Əslində Lənkəran silsiləsində təbiət mənzərəsi digər silsilələrə ("Naxçıvan", "Quba") nisbətən az yer verilmişdir. Belə ki, bu silsilədə çoxfiqurlu kompozisiyaya daha çox önəm verilmiş, lakin buna rəğmən çəkilən fiqurlar təbiət fonunda əks olunmuşdur. Bu mənada "Çayçı qızlar" əsərini qeyd etmək olar. Silsiləyə daxil olan "Nohur" əsəri isə bütünlüklə təbiət mənzərəsidir. Kompozisiyanın ön planında göl, daha sonra yaşıllığa qərq olunmuş düzənlik, arxa planda isə sıldırım dağlar və ətəyində kənd evləri təsvir edilib. Yaşıl rəngin müxtəlif çalarlarından yüksək ustalıqla istifadə edən rəssam sözün əsl mənasında gözoxşayan təbiət mənzərəsi yaratmışdır.

Cənub bölgəsinə həsr edilmiş maraqlı mənzərələrdən biri də kətan üzərində yağlı boya ilə işlənilmiş "Lerik dağları" (1982) əsəridir. Bir-birinə bənd olmuş sıldırım dağların ətəyində evləri kiçik həcmdə verməklə sanki rəssam dağların əzəmətini nümayiş etdirmək istəyib və təbii ki, bir çox əsərlərində olduğu kimi burada da buna nail olmuşdur. Oxşar kompozisiyanı "Laçın" (1973) silsiləsinə aid olan "Laçın", "Laçın. Qoşa su" adlı əsərlərdə müşahidə edə bilərik.

Nəticə etibarilə qeyd edək ki, Maral Rəhmanzadənin təbiət mənzərələrini, xüsusilə dağ təsvirlərini əks etdirən mənzərə əsərlərini müşahidə etsək, onların kompozisiya və rəng, bədii-texniki dəyər, emosionallıq, bütövlük baxımından bir o qədər də fərqli olmadığını görmüş olarıq. Görünür bu da bilavasitə rəssamın doğma yurdun bölgələrini eyni sevgi ilə tərənnüm etməsindən irəli gəlirdi.

Maral Rəhmanzadənin ağ-qara, eləcə də rəngli cizgilərin yüksək ahəngdarlığı ilə ərsəyə gətirdiyi təbiət mənzərələri kifayət qədər diqqətçəkənliyi ilə seçilməklə yanaşı, vətənə, torpağa sevgi rəmzi kimi də qəbul olunur.

## Ədəbiyyat:

1. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001, 547 s.
2. Maral Rəhmanzadə. Rəngkarlıq, qrafika. Mətnin müəllifi X.Əsədova. "Sərvət" layihəsi – Bakı: Şərq-Qərb, 2013, 104 s.
3. Maral Rəhmanzadə. Rəngkarlıq və qrafika. Mətnin müəllifi Ş.Məlikova. Xalq Bankın "Xalq əmanəti" layihəsi – Bakı: Şərq-Qərb, 2011. 240 s.
4. Böyükağa Mirzəzadə. Rəngkarlıq və qrafika. – 2010

## Характерные особенности пейзажей в творчестве Марал Рахманзаде

## Резюме

В статье исследовано творчество выдающейся народной художницы Марала Рахманзаде, проанализированы характерные особенности её произведений в жанре пейзажа, выполненных различными техниками.

**Ключевые слова:** природа, пейзаж, графика, Азербайджан, Марал Рахманзаде.

## Characteristic features of landscapes in the works of Maral Rahmanzadeh

## Summary

The article depicts the artworks of prominent National Artist Maral Rahmanzadeh and analyzes the peculiar features of her works created on landscape art by various methods.

**Key words:** nature, landscape, graphics, Azerbaijan, Maral Rahmanzadeh.